Türküstan №35 30 sentyabr – 6 oktyabr 2025-ci il





**Kamil Şahverdi**

*Rəşid Behbudov Fondunun direktoru*

# Bir daha Himnimiz haqqında

**II yazı**

**(əvvəli ötən sayımızda)**

***Mən Əbülfəz Elçibəylə görüşmək qərarına gəldim. Çünki əgər həqiqətən, belə bir təklif olacaqdısa, onda bizim illərlə gördüyümüz işlər, apardığımız mücadilə heçə enmiş olardı. Xalq Cəbhəsinin qərargahı o dövrdə indiki Nəriman Nərimanov prospektində (keçmiş Sovet küçəsində) Məktəbəqər Pedaqoji Texnikumda yerləşirdi. Gəldim ora və Əbülfəz bəylə görüşə nail oldum. Biz hələ meydan hərəkatından tanış idik və sonrakı illərdə də ara-sıra görüşürdük. Əbülfəz bəyə himn məsələsi ilə bağlı gəldiyimi söylədim. Görüşümüz bir saatdan artıq çəkdi. Mən himnlə əlaqədar görülən işlər haqqında məlumat verdim. Çox gərgin proseslərdən keçmiş və 70 il sovet hakimiyyətinin unutdura bilmədiyi "Azərbaycan marşı"nı bu gün hər bir azərbaycanlının qürur, şərəf, fəxarət hissi ilə sevə-sevə oxumasından danışdım. Görkəmli bəstəkar Aydın K.Azimin himnlə bağlı mövqeyini izah etdim. Əbülfəz bəy məni maraqla dinləyirdi. Dediklərimin hamısını "təbii, təbii" deyərək rəğbətlə qarşıladı. Fikirlərimlə tam razı olduğunu bildirdi. Amma...***

Əbülfəz Elçibəy:

"Koroğlu" operasının uvertürası xalqımızın azadlıq, müstəqillik uğrunda apardığı mübarizənin simvoludur. Biz uvertüranın sədaları altında bu yola çıxmışıq. Üzeyir bəyin uvertürası xalqımızı azadlığı, müstəqilliyi uğrunda mübarizəyə ruhlandırdı və şükür Allaha ki, buna nail olduq. İndi bizim qarşımızda daha böyük və çətin işlər var. Biz kağız üzərində azadlığımızı, müstəqilliyimizi qazanmışıq. İndi vacibdir ki, bunu kağız üzərindən həyatımıza da keçirək, həyatımızda da reallaşdıraq. Bu, çox çətin və uzun yoldur. Əsas mübarizə hələ qabaqdadır. "Koroğlu" operasının uvertürasının missiyası hələ bitməyib. Ona görə düşünürəm ki, uver-türanı himn kimi qəbul etmək doğru olar. Bu, mənim şəxsi fikrimdir. (Əbülfəz bəy bunu xüsusi olaraq bir neçə dəfə vurğuladı -K.Ş.) Bilirəm ki, Milli Şurada komissiya himni müzakirə edir. Ondan əvvəl Ali Sovetdə komissiya yaradılmışdı, orda da müzakirələr aparılıb. Bəzi bəstəkarlar və şairlər yeni himn yazmaq istəyirlər. Bunların hamısından xəbərim var. Mən də öz təklifimi vermək istəyirəm, qoy müzakirə etsinlər".

Mən uvertüranın himn üçün yaramadığı haqqında fikrimi əsaslandırmağa çalışdım. "Koroğlu" operasının uvertürasının yalnız azadlıq, müstəqillik uğrunda mübarizəmizin simvolu deyil, həm də 1930-cu illərin sonundan bu günə qədər ən çətin, ən ağır, ən dəhşətli vaxtlarda millətimizin milli varlığının qorunmasında əvəzsiz rolu olduğunu qeyd etdim. Həm Güneydə, həm Quzeydə Üzeyir bəyin uvertürasının millətin, xalqın özünü qoruyub saxlamasına xidmətindən danışdım. Bildirdim ki, bütün bunlara görə uvertüranın xalqımız, millətimiz üçün əhəmiyyəti daha böyükdür, daha ucadır.

Əbülfəz bəy fikirlərimi maraqla dinləyirdi. Hətta təklif etdi ki, uvertüra haqqında düşüncələrimi qələmə alım. Bununla yanaşı, o, uvertüranı himn kimi müzakirələrə təklif etmək fikrində israrlı idi. Mən həm buna görə, həm də söhbətimizin uzun çəkməsindən narahatlıq keçirirdim. Çox həyəcanlı idim. Düşünürdüm ki, görüşümüz nəticəsiz başa çatacaq. Otağın qapısı da tez-tez açılırdı. Mən qapıda kimin olmasını görməsəm də, Əbülfəz bəyin "bir az gözləyin" işarəsini aydın görürdüm. Hər dəfə qapı açılanda həyəcanım daha da artırdı ki, kimsə vacib, təcili bir iş üçün gələr və Əbülfəz bəylə söhbətimiz yarımçıq qalar. Ona görə sonuncu arqument kimi söylədim ki, görkəmli bəstəkarımız Aydın K.Azim təkidlə bildirir, "Azərbaycan marşı" formasına, quruluşuna, mahiyyətinə, emosionallıq dərəcəsinə görə əsl himndir. Üzeyir bəy bu əsəri himnin bütün janr xüsusiyyətlərini nəzərə alaraq yazıb. "Azərbaycan marşı" himn standartlarına tam uyğundur. Onu da əlavə etdim ki, "Müstəqillik haqqında" Konstitusiya Aktında da qeyd olunub ki, Azərbaycan Respublikası 1918-1920-ci illər mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Bayrağımız təsdiq olunubsa, himnimiz də təsdiq olunmalıdır. Əbülfəz bəy bildirdi ki, bayrağımız Cümhuriyyət vaxtı rəsmən qəbul olunduğuna görə təsdiqində heç bir problem olmadı. Himnin təsdiqi ilə bağlı isə heç bir sənəd yoxdur.

Söhbətimiz uzandıqca mənim həyəcanımın dərəcəsi də artırdı. Gözləmədiyim halda Əbülfəz bəy söylədi:

"Mən Aydın bəyin (Aydın K.Azim-K. Ş.) fikirlərinə hörmətlə yanaşıram. Aydın bəy görkəmli bəstəkar və böyük alimdir. Onun fikirləri olduqca qiymətlidir. Əgər o təkid edirsə, deməк ki, haqlıdır. Siz gərək nəzərə alasınız ki, Azərbaycan sovet himninin keçməsini istəyən ciddi qüvvələr var. "Azərbaycan marşı"nı təsdiqləmək asan olmayacaq. Azərbaycan sovet himni Üzeyir bəyin gözəl əsərlərindən biri olsa da, ideoloji baxımdan onu himn kimi saxlamaq doğru olmaz. Mən sovet himninin keçməməsi üçün uvertüranı təklif etmək qərarına gəlmişəm. Bilirəm ki, hakimiyyətdə olanlar sovet himnini saxlamaq üçün necə canfəşanlıq edirlər. Əminəm ki, biz uvertüranı təklif etsək, onun əleyhinə çıxmazlar. Bu gün səndən Aydın bəyin arqumentlərini eşidəndə onun haqlı olduğuna əmin oldum. Düşünürəm ki, Milli Şurada da bunu dəyərləndirirlər".

***Mən sevincimdən tez ayağa durub, Əbülfəz bəylə sağollaşıb otaqdan çıxdım. Otağın qarşısında xeyli insan toplaşmışdı. Heç kimin üzünə baxmadan tələsik binanı tərk etdim. Telefon avtomatı tapıb Aydın müəllimə zəng etdim. Şəhərdə görüşdük və mən Əbülfəz bəylə olan söhbətimizi Aydın müəllimə danışdım. Həmin gün sanki çiyinlərimdən ağır yük götürülmüşdü. Çox sevincli və fərəhli idim.***



### "Azərbaycan marşı"növbəti sınaqla üz-üzə

Bu dövrdə artıq komissiyanın işində də bir müəyyənlik formalaşmışdı. Komissiya üzvlərinin əksəriyyəti "Azərbaycan marşı"nı himn kimi səsverməyə çıxarıb təsdiqləmək fikrində idi. Sovet himninin tərəfdarları komissiyada, demək olar ki, yox idi. Milli Şurada "Komblok" və Ali Sovetin bir çox deputatları sovet himninin keçəcəyinə əmin idilər. Milli Şuraya düşməyən deputatların səlahiyyəti saxlanmışdı. Onlar istənilən mövzunun müzakirəsində məşvərətçi səslə iştirak edə bilirdilər. Ona görə də həm bu səbəbdən, həm də hakimiyyətdəki dayaqlarına arxalanaraq "komblok"da belə bir əminlik yaranmışdı. Komissiyanın növbəti iclaslarının birində Firudin Cəlilov əvvəlki komissiyanln "Azərbaycan marşı"nı himn kimi səsverməyə təklif etmək üçün sənətkarlardan ibarət yaradılmış işçi qrupunun gördüyü işləri məqbul saydığını elan etdi və onların hazırladığı variantı səsverməyə çıxarmağı təklif etdi. İşçi qrupuna Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi Tofiq Quliyev, görkəmli bəstəkar Cövdət Hacıyev, "Azərbaycan marşı"nın bərpaçısı Aydın K.Azim, şairlərdən Vaqif Səmədoğlu və Vaqif Cəbrayılzadə (Bayatlı) daxil idi. Beləliklə, yeni komissiya əvvəlki komissiyanın təklifini dəstəklədiyini elan etdi. Hər iki komissiyanın qərarı eyni idi. İşçi qrupunun üzvləri hələ bir neçə ay bundan əvvəl dəfələrlə toplaşmış və ortaya çıxan bütün sualları həll etmişdir. Doğrudur, Tofiq Quliyev və Cövdət Hacıyev işçi qrupunun iclaslarında iştirak etmirdilər. Çünki Tofiq Quliyevin öz variantı var idi

Cövdət Hacıyev isə səhhəti ilə bağlı müzakirələrə qatıla bilməmişdi. Bəstəkar Aydın K. Azim, şairlər Vaqif Səmədoğlu və Vaqif Cəbrayılzadə dəfələrlə görüşüb müzakirələr aparmışdılar. Ən sonda o zaman Mətbuat və İnformasiya nazirinin birinci müavini Nəriman Həsənzadənin iştirakı ilə onun kabinetində "Azərbaycan Marşı"nın mətninin yekun variantı təsdiqlənmişdi. Bu görüşdə mətndə iki cüzi, amma çox önəmli dəyişiklik edildi. Birinci dəyişiklik haqqında yazının əvvəlki hissəsində məlumat vermişəm.

"Sənə hər dəm can qurban" misrası "Sənə hər an can qurban" kimi qeyd olunub. "Dəm" sözü "an" sözü ilə əvəzlənib. Çünki ifa olunanda "hər dəm" "hərdən" kimi səslənə bilərdi. İkinci dəyişiklik isə o oldu ki, "Sənə bir çox məhəbbət" misrası "Sənə min bir məhəbbət" kimi yazılması qərara alındı. Bu misrada "bir çox" sözləri "min bir" sözləri ilə əvəzləndi.

Milli Şuranın Təhsil, elm, mədəniyyət və din məsələləri komissiyasının son təklifi Bəstəkarlar İttifaqında birmənalı qarşılanmadı. Şairlər arasında da bu təklifə etiraz edənlər oldu. Çünki həm bəstəkarlar, həm də şairlər arasında himn müsabiqəsində öz variantları ilə iştirak etmək istəyənlər var idi...

Komissiyanın işində vacib məsələlərdən biri də "Azərbaycan marşı"nın sözlərinin müəllifini müəyyən etmək idi. Çünki bu həssas məsələ tez-tez qaldırılır və mətnin Əhməd Cavada aid olması ilə bağlı faktların ortaya qoyulması tələb olunurdu. Əksəriyyət sözlərin Əhməd Cavada aid olmasına əminliyini bildirsə də, bunu sübut edəcək sənəd tapılmırdı. Arxivlərdən, Əlyazmalar fondundan, Elmlər Akademiyasının Ədəbiyyat İnstitutundan da təsdiqləyici fakt, sübut, sənəd təqdim olunmamışdı. "Azərbaycan marşı"nın ilk dəfə 1965-ci ildə Türkiyədə nəşr olunmasına, 70 il ərzində mühacir həyatı yaşamağa məhkum edilmiş görkəmli şəxsiyyətlərimizin, düşüncə adamlarımızın xidmətləri sayəsində bu əsərin gələcək nəsillər üçün qorunub saxlanmasına nail olduqlarına görə Azərbaycan Kültür Dərnəyi ilə əlaqə yaradıldı. Komissiyanın sədri Firudin Cəlilov onlarla müntəzəm qaydada məsləhətləşmələr aparırdı. "Azərbaycan marşı"nın sözlərinin Əhməd Cavadın adıyla bağlılığının haradan qaynaqlandığı haqqında yazının növbəti hissəsində geniş və ətraflı məlumat verərəm. Bu çox vacib və önəmli məsələyə aid bildiklərimi, topladığım faktları diqqətinizə çatdıracağam. Hələ ki Bakıda gedən mücadilənin təfərrüatına nəzər salaq.

### "Azərbaycan marşı" körpə uşaqların və məktəblilərin də sevgisini qazanmışdı

***Biz, "Azərbaycan marşı"nın himn kimi təsdiq edilməsini arzulayan bir qrup gənc qərara gəldik ki, orta məktəblərdə və uşaq bağçalarında eksperiment keçirək. Belə ki, məktəb və bağçalarda musiqi dərsi deyən tanışlarımızdan xahiş etdik ki, uşaqlara Azərbaycan sovet himnini və "Azərbaycan marşı"nı bir neçə dəfə dinlətsinlər. Sonra onların hansı əsəri necə qavramaları və reaksiyaları haqqında bizə məlumat versinlər. Təxminən 10 məktəb və o qədər də uşaq bağçasında tanıdığımız müəllimlər bu prosesdə iştirak edirdilər. Bir neçə gündən sonra müəllim tanışlarımızın hamısı bizi heyrətləndirəcək məlumatlarla geri göndülər. İnanılmaz idi. Bütün müəllimlər bir nəfər kimi qeyd etdilər ki, bir neçə dəfə dinləyəndən sonra uşaqlar "Azərbaycan marşı"nı əzbərdən və sevə-sevə oxuyurdular. Bu, qeyri-adi bir hadisə idi. İki-üç dəfə dinləyəndən sonra uşaqların sözləri və musiqini əzbərdən oxuması bizi heyrətləndirmişdi. Üzeyir bəyin "Azərbaycan marşı" uşaqdan-böyüyə bütün millətin qanına hopmuşdu. Bu əsər ana laylası qədər doğma, əziz, halal idi hamıya. Mən bu eksperiment haqqında o vaxtlar Ali Sovetdə işləyən Gülnarə Qurbanovaya (Şıxəli Qurbanovun qızı) danışmışdım. O da çox heyrətlənmişdi buna...***

**(ardı gələn sayımızda)**